# Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2013-cü ildə Azərbaycan Milli Kitabxanasının yaradılmasının 90 ili tamam olur.

Fəaliyyətə başladığı dövrdən etibarən Azərbaycan Milli Kitabxanası zəngin inkişaf yolu keçərək böyük əhəmiyyətə malik nəşrləri mühafizə edən mədəni sərvətlər xəzinəsinə çevrilmişdir. Ötən müddət ərzində o, cəmiyyətin intellektual-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynamış, elm və mədəniyyət xadimlərinin bir neçə nəslinin formalaşmasına öz töhfəsini vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq ölkədə elmi-mədəni və ədəbi irsin qorunub saxlanılmasında mühüm xidmətləri olan Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 24 iyun 2013-cü il.*

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dövlət büdcəsindən maliyyələşdirilən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu sərəncam 2013-cü il iyulun 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 24 iyun 2013-cü il.*

# «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin.

2. Bu sərəncamla təsdiq edilən Dövlət Proqramının həyata keçirilməsinə nəzarət və onun icrası zamanı işlərin müvafiq orqanlarla əlaqələndirilməsi Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına həvalə edilsin.

3. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına tapşırılsın ki, bu sərəncamla təsdiq edilən Dövlət Proqramının icrası sahəsində görülən işlər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 24 iyun 2013-cü il.*

# ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ münaqişəsinə dair birgə bəyanat qəbul etmişlər

Rusiya, ABŞ və Fransa prezidentləri Vladimir Putin, Barak Obama və Fransua Olland iyunun 18-də Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair birgə bəyanat qəbul etmişlər. ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları Azərbaycanı və Ermənistanı Dağlıq Qarabağ münaqişəsinin hələ də açıq qalan məsələləri üzərində diqqəti cəmləşdirməyə çağırmışlar.

Prezidentlərin bəyanatında vurğulanır: «Biz dərindən təəssüfləndiyimizi bildiririk ki, tərəflər danışıqlar prosesində qarşılıqlı maraqların nəzərə alınmasına əsaslanan həll yolu tapmağa çalışmaq əvəzinə, birtərəfli mənfəət əldə etmək səylərini davam etdirmişlər. Biz qəti əminik ki, münaqişənin dinc yolla hərtərəfli tənzimlənməsinə doğru aparan tarazlaşdırılmış çərçivə razılığına nail olmaqda bundan sonra da ləngimə qəbuledilməzdir, buna görə də Azərbaycan və Ermənistan liderlərini səylərini hələ açıq qalan məsələlərin həlli üzərində yeni əzmlə cəmləşdirməyə çağırırıq».

Liderlər üç ölkənin son dörd ildəki bəyanatlarında təsbit olunmuş müddəaları xatırlatmışlar. Sənəddə deyilir: «Bu müddəaları vahid bir tam kimi nəzərdən keçirmək lazımdır, çünki onlardan birinə digərləri qarşısında üstünlük vermək üçün göstərilən hər hansı cəhd tarazlaşdırılmış qərar qəbul edilməsinin mümkünlüyünü istisna edir».

Bəyanatda deyilir: «Yalnız danışıqlar yolu ilə tənzimləmə regional inkişaf və əməkdaşlıq üçün imkanlar yaratmaqla sülhə, sabitliyə və barışığa gətirib çıxara bilər». Sənəddə daha sonra qeyd edilir: «Cari qarşıdurma və qeyri-sabitlik vəziyyətinə gətirib çıxarmış hərbi qüvvə tətbiq edilməsi münaqişəni həll etməyəcəkdir. Hərbi əməliyyatların yenidən başlanması region əhalisi üçün fəlakətli nəticələr doğurar, insan tələfatına, yeni dağıntılara, qaçqınların sayının artmasına, çox böyük maliyyə məsrəflərinə gətirib çıxarar».

RF, ABŞ və Fransa prezidentlərinin bəyanatında deyilir: "Biz tərəflərin rəhbərlərini Helsinki prinsiplərinə, xüsusən zor tətbiq edilməməsi və ya zor tətbiq ediləcəyi barədə hədələməmək, ərazi bütövlüyü, hüquq bərabərliyi və xalqların təyini-müqəddərat hüququ prinsiplərinə sadiq olduqlarını bir daha təsdiqləməyə qətiyyətlə çağırır, onlardan təkidlə xahiş edirik ki, regionda gərginliyin artmasına və münaqişənin genişlənməsinə gətirib çıxara biləcək hərəkətlərdən və bəyanatlardan çəkinsinlər. Rəhbərlər xalqları müharibəyə deyil, sülhə hazırlamalıdırlar».

Vladimir Putin, Barak Obama və Fransua Olland təsdiq etmişlər ki, onların ölkələri «tərəflərə kömək etməyə hazırdırlar, lakin münaqişəyə son qoymaq üçün məsuliyyət tərəflərin özlərinin üzərinə düşür».

**AzərTAc.**

### *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN İYUL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Mıxlıqovaq kəndi | 02.07.2013 | Klub müəssisəsi, saat $11^{00}$ |
| Soltannuxa kəndi | 09.07.2013 | Kənd məktəbi, saat $15^{00}$ |
| Uludaş kəndi | 16.07.2013 | Kənd məktəbi, saat $15^{00}$ |
| Tüntül kəndi | 23.07.2013 | Mədəniyyət evi, saat $11^{00}$ |
| Kürd kəndi | 30.07.2013 | Kənd məktəbi, saat $11^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

## Qeyri-neft sektorunda məhsul istehsalı artmışdır

Dövlət Statistika Komitəsindən verilən məlumata görə cari ilin 5 ayı ərzində ölkədə 22,1 milyard manatlıq və ya keçən ilin müvafiq dövründəkindən 4,5 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Bunun 62,7 faizi məhsul istehsalı, 30,9 faizi xidmət sahələrində yaradılmış, 6,4 faizi məhsula və idxala xalis vergilərin payına düşmüşdür. 5 ay ərzində hər nəfərə 2389 manat ÜDM istehsal olunmuşdur. Yanvar-may aylarında əlavə dəyərin 52,5 faizi qeyri-neft sektorunda istehsal olunaraq müqayisə edilən dövrə nisbətən 11 faiz artmışdır.